

# 2013-cü ilin noyabr-dekabr ayları APFM və bir sıra ictimai əhəmiyyətli qurumlar arasında Əməkdaşlıq Memorandumlarının imzalanması ilə yadda qaldı





13 noyabr 2013-c il tarixində Azərbaycanın Professional Maliyyə Menecerləri Assosiasiyası və Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyası arasında memorandum imzalanmışdır. Memorandum çərçivəsində iki təşkilat arasında birgə əməkdaşlıq və qarşılıqlı layihələrin keçirilməsi nəzərdə tutulur, Konfederasiyaya üzv digər təşkilatlar və şirkətlərlə geniş əməkdaşlıq əlaqələrinin yaradılması və demo- treninqlərin keçirilməsi planlaşdırılır.

21 noyabr 2013-cü il Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyası və "İrəli" Təlim və Karyera Mərkəzi arasında 1illik əməkdaşlıqla bağlı



memorandum imzalanıb.

Memorandum Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının rəhbəri Nuriyyə Novruzova və "İrəli" Təlim və Karyera Mərkəzinin rəhbəri Nihad Allahyarlı tərəfindən imzalanıb.

Bildirilib ki, memorandum Azərbaycanda maliyyə və menecment sahəsinin inkişafına töhfə vermək, bu sahədə kadr hazırlığının gücləndirilməsi, gənclərin daha geniş məlumat və biliklərə yiyələnməsi üçün atılan addımlardan biridir.

Qeyd edək ki, qarşılıqlı fəaliyyət nəticəsində artıq bir layihənin hazırlıq mərhələsi bitib. "İrəli" Təlim və Karyera Mərkəzi qurduğu əməkdaşlıqlar sayəsində bahalı və çox maraqla gözlənilən təlim paketlərini ödənişsiz şəkildə gənclərə təqdim etməyə davam edir. Yaxın günlərdə hər iki qurumun birgə əməkdaşlığı nəticəsində ərsəyə gələn bir neçə layihələr gənclərə təqdim olunacaq.

- 26 noyabr 2013 tarixində bir cox böyük təşkilatların üzv olduğu Milli QHT Forumu ilə imzalanan memorandum Azərbaycanın Professional Maliyyə Menecerləri Assosiasiyası üçün önəmli addımlardan biri oldu. Gələcək illərdə QHT Milli Forum ilə sıx və məhsuldar əməkdaşlıq planlaşdırılır. Təşkilat üzvləri ilə yaradılacaq əlaqələr APFM üçün prioritet hesab edilir.

- 04 dekabr 2013-cü il tarixdə Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyası arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Sənədi Auditorlar Palatasının sədri Vahid Novruzov və Professional Maliyyə Menecerləri Assosiasiyasının (APFM) prezidenti Nuriyyə Novruzova imzalayıb.

Bu saziş, Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) tamhüquqlu üzvü olan Azərbaycan Respublikasının Auditorlar Palatası və Beynəlxalq peşəkar təşkilatların Azərbaycanda akkreditasiya olunmuş regional mərkəzi olan Azərbaycan Professional



Maliyyə Menecerləri Assosiasiyasının Infosystem-LINK tədris mərkəzi ilə daha səmərəli birgə fəaliyyətlərini təmin etmək məqsədini daşıyır.

Memorandum çərçivəsində əsas fəaliyyət istiqamətləri kimi, auditor, maliyyə və mühasib kadrlarının IFAC-ın üzvlük tələblərinə müvafiq olaraq hazırlanmasında müvafiq tədris materiallarını təqdim etmək sahəsində qarşılıqlı işgüzar informasiya mübadiləsinin həyata keçirilməsi; audit, maliyyə və mühasib ixtisasları üzrə ölkə iqtisadiyyatının inkişafı üçün gənc iqtisadçıların hazırlanması və peşəkar səviyyəsinin artırılması; ölkədə maliyyə, mühasibat uçotu, audit sahəsində beynəlxalq standartlarının tətbiqi yolu ilə beynəlxalq statuslu kadrların hazırlanması və daima təkmilləşdirilməsi; Assosiasiyanın nəşr etdiyi "Finansist" jurnalının maliyyə, mühasibat uçotu və auditi sahəsində elmi-praktik vəsait kimi təbliğ edilməsi və s. birgə layihələrin keçirilməsi nəzərdə tutulur.

**Beynəlxalq Diplomların növbəti təqdimat mərasimi.** 22 noyabr 2013-ci ildə Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının prezidenti Nuriyyə Novruzova Infosystem-LINK tədris mərkəzində IAB Level 3, Beynəlxalq mühasibat uçotu, ICFM - IFRS və Daxili audit proqramlarının məzunlarına diplomları təqdim etdi.

Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının və Böyük Britaniya İnstitutlarının uğurlu əməkdaşlığı sayəsində yüzlərlə mütəxəssis yüksək keyfiyyətli təhsil alaraq öz peşəkar yollarını tapıblar. Infosystem-LINK-də təlimin (təhsilin) əsas xüsusiyyəti odur ki, burada tələbələrə biznesi qarşılıqlı əlaqəli sistem kimi görməyi, təhlil etməyi və qeyri-standart qərarlar qəbul etməyi öyrədirlər.

Bundan başqa, Infosystem-LINK işgüzar insanların əldə edilən biliklərin praktiki tətbiq etməsi üçün xüsusi texnologiyaları müvəffəqiyyətlə tətbiq edir və onların iş prosesinə inteqrasiya olunmasına kömək edir. Distant praktik yönümlü təliminin (təhsilinin) unikal texnologiyası sayəsində Infosystem-LINK Azərbaycanda nömrə bir oldu.

Infosystem-LINK proqramının müəllimləri öz çıxışlarına məzunları təbrik etməklə başladılar. Onlar məzunları bu çətin təhsili başa vurmaları münasibəti ilə təbrik etdilər.



